**Günel Rəhim qızı OSMANOVA**
Azərbaycan Dövlət Aqrar Universiteti
Maliyyə və mühasibat uçotu kafedrasının baş müəllimi
E-mail: gunsham@mail.ru
ORCID İD - 0009-0003-4611-8100

# AQRAR SAHƏDƏ İNHİSARÇILIĞIN AZALDILMASINA YENİ YANAŞMALARIN ƏSAS CƏHƏTLƏRİ

**Xülasə**

Aqrar sahədə inhisarçılıq, müxtəlif məhsulların istehsalı və emalında monopoliyanın artması və bunun iqtisadiyyatda yaratdığı təsirlər tədqiq edilmişdir. İnhisarçılığın azaldılması üçün müxtəlif yanaşmaların mahiyyəti, qiymətlərin və əmək intensivliyinin dinamikası ilə bağlı yeni metodların tətbiqi önə çıxır. Xüsusilə, əmək məhsuldarlığının artması ilə məhsulun maya dəyərinin azaldılması, inhisarlaşmanın bazar qiymətlərinə olan təsiri və dövlətin antiinhisar siyasətinin rolu ətraflı şəkildə araşdırılır. Məqalədə həmçinin pambıq istehsalı və emalı sektorunda baş verən inhisarçılıq halları da təhlil edilir. Nəticə olaraq, dövlətin antiinhisar siyasətinin təkminləşdirilməsi və iqtisadiyyatda rəqabətin qorunması məqsədilə yeni tənzimləyici tədbirlərin tətbiqi vacibdir.

**Açar sözlər*:*** inhisarçılıq, rəqabət, aqrar iqtisadiyyat, qiymət, maya dəyəri, antiinhisar.

**UOT:** 338
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/ XSLR6586

**Giriş**

**Tədqiqatın Məqsədi.** Bu tədqiqatın məqsədi aqrar sektorda inhisarçılığın azaldılması və rəqabətin inkişaf etdirilməsi üçün yeni yanaşmaların təhlilini həyata keçirməkdir. Məqsəd, inhisarçılığın aqrar sahədə necə formalaşdığı və bu prosesin qiymətlərin müəyyənləşdirilməsinə, istehsalın təşkilinə, və əmək intensivliyinə necə təsir etdiyini başa düşməkdir. Həmçinin, bu tədqiqatda yeni nəzəri yanaşmaların və metodların tətbiq edilməsi ilə əlaqədar müvafiq təkliflərin verilməsi nəzərdə tutulur.

**Tədqiqatın Metodu.** Tədqiqatda əsasən kəmiyyət təhlili, iqtisadi modelləşdirmə və statistik analiz metodlarından istifadə edilmişdir. İlk mərhələdə, aqrar sektorda inhisarçılığın strukturu və qiymət dinamikası mövzusunda nəzəri araşdırmalar aparılmış, müasir iqtisadiyyatda qiymətlərin formalaşması ilə bağlı mövcud yanaşmalar təhlil edilmişdir. Həmçinin, əmək intensivliyi və maya dəyəri anlayışlarının müqayisəli təhlili vasitəsilə inhisarçılığın qiymət və istehsal üzərindəki təsirləri qiymətləndirilmişdir.

Məlumatlar əsasən Azərbaycan və Türkiyə kənd təsərrüfatı sektoru ilə bağlı statistik məlumatlar əsasında toplanmış və analiz edilərək iqtisadiyyatda inhisarçılığın qarşısının alınması üçün tövsiyələr irəli sürülmüşdür. Bu metodologiya, qiymət və əmək intensivliyi arasındakı əlaqəni ölçməklə, inhisarçılığın təsirini daha dərindən başa düşməyə imkan verir.

Aqrar sahədə inhisarlaşdırılma müxtəlif məhsulların istehsalı və emalında inhisarçılığın yaranması və inkişafı ilə bağlı proses kimi xarakterizə olunur. Müəyyən dövrlərdə istehsal sahələrində inhisarçılığın təzahürü, aqrar iqtisadiyyatın rəqəmsallaşmasının həyata keçirilməsi ilə bağlı ilkin şərtlərin məhdudlaşdırılmasına zəmin yaradır [Чепурнова Н.М., Мурызева В.О., 2020]. Bu mənada inhisarlaşmanın mahiyyəti ilə bağlı iki əsas yanaşma mövcuddur. İlk mərhələdə azad rəqabət istehsalın və kapitalın təmərküzləşməsi və mərkəzləşdirilməsinin tərəqqisi ilə əsaslandırılır. Neoklassik nəzəriyyədə diqqət yalnız istehsalçının tələbi çərçivəsində bazar qiymətini müəyyən edə bildiyi zaman bazar strukturunun xüsusi növü kimi

inhisara yönəldilir. Hər iki halda inhisarçılığın formalaşması prosesi mahiyyətcə oxşardır. Belə ki, bu zaman xammal mənbələrinin inhisarlaşdırılması, iri müəssisələrdə elmi-texniki tərəqqinin geniş tətbiqi nəticəsində konkret xərclərin azaldılması əsas məsələlər kimi diqqətdə saxlanılır.

İstər marksist nəzəriyyə, istərsə də neoklassik nəzəriyyə inhisarların müəyyən etdiyi qiymətlərə yanaşmaları ehtiva edir: birinci nəzəriyyə əmtəənin maya dəyərinə münasibətlə, ikinci tam rəqabətli sahə daxilində istehsal olunan malların qiyməti ilə müqayisədə öz əksini tapır. Qeyd olunan yanaşmaların ümumi cəhətləri inhisarlaşmanın ölçülməsində də özünü göstərir. Neoklassik nəzəriyyədə inhisarlaşma səviyyəsini qiymətləndirərkən istehsalın təmərküzləşməsi nəzərə alınır və inhisarlaşmanın obyektiv əsası kəmiyyət ifadəsini alır. Eyni zamanda konkret sahənin strukturu qiymətə təsir edən amil kimi nəzərə alınır.

İnhisarçılığın izafi mənfəəti qiymət artımının deyil, onun obyektiv mümkün səviyyəyə nisbətən həddindən artıq qiymətləndirilməsinin nəticəsidir. Bu baxımdan məhsulda təcəssüm olunan əmək məsrəflərinin ölçüsü kimi maya dəyərinə nisbətən yüksək qiymət qoyulması məsələsinin qoyulması qanunauyğundur. Müasir iqtisadiyyatda maya dəyərinin dinamikası əmək intensivliyinin dinamikası əsasında qeydə alına bilər [Антипова Д.В., Кривова К.А., 2020.]. Bununla əlaqədar olaraq, iqtisadiyyatın istehsal sektorunda inhisarlaşmanın ölçülməsinə yeni yanaşmaların formalaşması zərurəti yaranır. Ümumiyyətlə, istehsal sektorunda məhsulun əmək intensivliyinin çoxistiqamətli dinamikası, bu məhsulun qiymət indeksi istehsalın inhisarlaşmasını və müxtəlif istehsal sahələrində əmək intensivliyinin dəyişmə sürətləri ilə qiymət səviyyəsi arasındakı fərq dərəcəsi inhisarlaşma dərəcəsini xarakterizə edə bilər. Çünki müasir şəraitdə istehsal olunan məhsulun maya dəyərinin dinamikasının əsas təzahürü qiymətlərin dinamikası deyil, əmək intensivliyinin dinamikasıdır.

Məlumdur ki, iqtisadiyyatda əmək məhsuldarlığının artması ictimai zəruri iş vaxtının xərclənməsi nəticəsində yaranan maya dəyərinin azalması deməkdir. Nəticə etibarı ilə inhisarlaşmış iqtisadiyyatda qiymət dinamikası dəyər dinamikasına uyğun gəlməyin qarşısını alır. Bu, ayrı-ayrı dövrlərdə ayrı-ayrı məhsulların qiymətlərinin aşağı düşməsi tendensiyası qiymət dəyişikliyi vektoruna tabe olaraq qaldıqda, bu, öz ifadəsini məhsulların qiymətlərinin ümumi səviyyəsinin artmasında tapır. Belə şəraitdə, əmək intensivliyinin dinamikası məhsulun maya dəyərinin dəyişməsinin ölçüsünə çevrilir [4]. Məhsulun ümumiləşdirilməsi bütün ictimai istehsal səviyyəsinə qədər mümkündür, bununla əlaqədar əmək intensivliyinin müvafiq növləri müəyyən edilir. Bununla belə, istehsal sahəsi əmək intensivliyi göstəricisindən istifadə etməklə əmək məsrəflərinin ölçülməsi ilə nə qədər çox əhatə olunarsa, əmək intensivliyi göstəricisi məhsul vahidinə düşən orta əmək vaxtı məsrəflərinin dəyərinə bir o qədər yaxındır və nəticədə əmək intensivliyinin dinamikası maya dəyərinin dinamikasını bir o qədər dəqiq əks etdirir. Nəticədə əmək intensivliyi, dəyərin ölçüsünə çevrilmədən, sonuncunun istiqamətini və dəyişmə sürətini qeyd etməyə imkan verir.

Bununla belə, əmək məhsuldarlığının artması ilə məhsul vahidinə düşən canlı əmək məsrəflərinin payı azalır, təcəssüm olunmuş əməyin payı artır, bütövlükdə əmək məsrəfləri isə azalır. Deməli, əmək məsrəflərinin dinamikası maya dəyəri səviyyəsində dəyişiklik istiqamətini əks etdirir. Kənd təsərrüfatında əmək intensivliyinin azalma templəri, istehsalatda müşahidə olunan göstəricilərə daha yaxındır, çünki müxtəlif sahələr üzrə məlumatlar daha qısa dövr üçün təqdim olunur.

Xərclərin dinamikasını əks etdirən əmək intensivliyinin azalmasına baxmayaraq qiymətlərin artması istehsalçıların bazar qiymətlərinə təsir imkanlarını göstərdiyindən qiymət indeksinin artımı ilə əmək intensivliyinin azalma sürəti arasındakı fərqin böyüklüyü qanuni olaraq inhisarlaşmanın ölçüsü kimi qəbul edilə bilər. Bu fərq nə qədər çox olarsa, inhisarlaşma səviyyəsini səciyyələndirən bazar qiyməti üzərində istehsalçıların gücü bir o qədər çox olur. Bu nöqteyi-nəzərdən, əldə olunan məlumatlara görə, inhisarçı qiymətqoyma ən çox faydalı qazıntıların çıxarılması və emal sənayesi üçün xarakterikdir. Bu, qiymət artımına inhisarçı istəklərin həyata keçirilməsinin qarşısını alır. Nəticədə, inhisarlaşma dərəcəsini qiymətləndirmək üçün təklif olunan yanaşma daha adekvatdır, dövlət orqanlarının şirkətlərin qiymət prosesinə təsiri bir o qədər azdır [Лернер А., 2003].

Qeyd edilən məsələlərin pambıq istehsalı və emalı ilə bağlı münasibətlərdə tədqiqi göstərir ki, bu sahədə müəyyən inhisarçılıq halları baş versə

də problem o qədər də dərin deyildir. Belə ki, araşdırmalar göstərir ki, hazırda pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər Kənd Təsərrüfatı Nazirliyi ilə razılıq əsasında qiymətləri müəyyən edir və müxtəlif illərdə emal sənayesi müəssisələrinə satılan xam pambığın qiymətinin artırılması müşahidə olunur. Bu baxımdan statistik məlumatlardan aydın olur ki, xam pambığın hər tonuna görə orta alış qiyməti 2019-cu illə müqayisədə 2023-cü ildə 25,3%, o cümlədən I növ üzrə 23,1%, II növ üzrə 25,8%, III növ üzrə 25,4%, IV növ üzrə 27,3% artmış, 2020 və 2021-ci illərdə xam pambığın qiymətində dəyişikliklər müəyyənləşdirilmiş, digər illərdə qiymətlər sabit saxlanılmışdır [Cədvəl].

**Cədvəl 1**

**Xam pambığın növlər üzrə hər tonuna görə müəyyən edilmiş alış qiyməti, manat**

| Növlər | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2019-cu illə müqayisədə 2023-cü ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| I növ | 650 | 650 | 750 | 800 | 800 | 123,1 |
| II növ | 620 | 620 | 730 | 780 | 780 | 125,8 |
| III növ | 590 | 590 | 690 | 740 | 740 | 125,4 |
| IV növ | 550 | 550 | 650 | 700 | 700 | 127,3 |
| Orta hesabla | 602,5 | 602,5 | 705,0 | 755 | 755 | 125,3 |

Xam pambığın orta satış qiyməti ilə emal müəssisələri tərəfindən alınan məhsulun qiymətinin müqayisəsi göstərir ki, xam pambığın orta satış qiyməti 2019-cu ildə 5,3%, 2020-ci ildə 5,1%, 2022-ci ildə 3,6%, 2023-cü ildə 3,8% olmaqla alış qiymətini üstələmişdir. Yalnız 2021-ci ildə fərqli vəziyyət müşahidə edilir [diaqram].




**Diaqram. Xam pambığın hər tonunun orta hesabla alış və satış qiyməti, manat**

Qeyd etmək lazımdır ki, müasir iqtisadiyyatda inhisarlaşma rəqabət mexanizmi üzərində üstünlük təşkil edən bir tendensiyadır. Nəzərə alsaq ki, kənd təsərrüfatında da əmək intensivliyinin azalması ilə ümumi qiymət səviyyəsində artım müşahidə olunur, deməli, aqrar sektorda da inhisarçılıq meylləri özünü büruzə verir. İnhisarlaşma səviyyəsinin bu cür qiymətləndirilməsi əvvəllər istifadə edilmiş yanaşmalardan onunla fərqlənir ki, qiymət indeksinin dinamikası və əmək intensivliyi müqayisə edildikdə daha dəqiq olur. Burada qiymət artımını xərc artımına çevirməyin heç bir təsiri yoxdur. Bu da mənfəətin artımını məhdudlaşdırır və bununla da inhisarlaşmanın dinamik təzahürünü xeyli dərəcədə neytrallaşdırır. Şübhəsiz ki, əmək intensivliyinin dinamikası ilə qiymətlər arasındakı əlaqəni iqtisadiyyatın göstərilən sahələrinin alt-sektorları prizmasından

tədqiq etməklə inhisarlaşmanın daha konkret mənzərəsini əldə etmək olardı. Bundan əlavə, istehsal sahələrinin xüsusiyyətlərindən asılı olaraq bazar qiymətlərinə nəzarətdə mümkün dəyişikliklər tədqiq olunan sektorlardakı ümumi vəziyyəti dəyişməz qalır.

Aydındır ki, heç bir antiinhisar tənzimləməsi bir tərəfdən maya dəyəri dinamikası ilə digər tərəfdən qiymət səviyyəsi arasında artan uyğunsuzluğu aradan qaldıra bilməz. Ona görə aqrar istehsalda inhisarçılığın bazar strukturunun dominant növü olduğu qənaətindən aqrar iqtisadiyyatın inkişafının inhisar mərhələsində olması nəticə vermir [Hüseyn R.Z., 2018]. Belə bir mərhələyə inhisarlarının kapitalının sənaye inhisarlarının kapitalı ilə birləşməsi və başqa əlamətlərinin olması faktı ilə təsdiq edilməlidir. Beləliklə, aqrar iqtisadiyyatın inhisarlaşdırılması prosesi həm müsbət, həm də mənfi nəticələrə malikdir, lakin inhisarçılıq daha çox mənfi cəhətləri ilə xarakterizə olunur. Ona görə düəyyən neqativ amillərin yaranmasının qarşısını almaq üçün dövlətin antiinhisar siyasəti aparması və bu sahədə təkmilləşdirmələr aparması zəruridir. İqtisadi transformasiyaların dərinləşməsi və inteqrasiya proseslərinin intensivləşməsi haqsız rəqabətdən, bazarda inhisarçılıq mövqeyindən sui-istifadədən, subyektlərin və dövlət orqanlarının rəqabətədavamlı hərəkətlərindən müdafiəsi sahəsində dövlətin inhisarçılıq siyasətinin işlənib hazırlanması və müvafiq olaraq, iqtisadi sahədə dövlətin müdafiəsi mexanizminin təkmilləşdirilməsi daim aktuallığını təsdiq edir. Bu çərçivədə antiinhisar qanunvericiliyi inhisarçılığın məhdudlaşdırılması, haqsız rəqabətin qarşısının alınması və ona əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi üçün hüquqi əsasları müəyyən edir. Qanunlar iqtisadiyyatın inhisardan çıxarılmasını, maliyyə, maddi-texniki, informasiya, məsləhət və digər dəstəkləri nəzərdə tutmaqla rəqabətin inkişafına təkan verir [1]. Qlobal inhisar prosesləri dövləti iqtisadiyyatda tənzimləmə tədbirlərini gücləndirməyə məcbur edib. Xüsusi antiinhisar siyasəti və antiinhisar qanunvericiliyi inhisarlaşma proseslərinə nəzarət etməyə, rəqabəti qorumağa və gücləndirməyə imkan verir.

**Məqalənin Elmi Yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi əsasən aqrar sektorda inhisarçılığın dinamikası və bunun qiymət formalaşmasına olan təsiri üzərindəki tədqiqatların azlığı ilə bağlıdır. Tədqiqatda təqdim olunan yeni yanaşmalar və metodlar inhisarçılığın ölçülməsi və qiymətləndirilməsi üçün daha dəqiq və müasir metodlar təqdim edir. Ənənəvi qiymət nəzəriyyələri ilə yanaşı, burada əmək intensivliyinin qiymət artımına olan təsiri ilə əlaqədar yeni bir model irəli sürülür.

Bundan əlavə, tədqiqatda inhisarçılığın əmək intensivliyinə və maya dəyəri arasındakı əlaqəyə xüsusi diqqət yetirilir ki, bu da aqrar sektorda qiymət dəyişikliklərini daha doğru proqnozlaşdırmağa imkan verir. Yenilik həmçinin, müxtəlif ölkələrin aqrar sektorlarında tətbiq edilən antiinhisar siyasətlərinin qiymətləndirilməsində özünü göstərir.

**Tətbiqi Əhəmiyyəti.** Bu tədqiqatın tətbiqi əhəmiyyəti aqrar sektorda rəqabətin artırılması və inhisarçılığın azaldılması ilə bağlı konkret siyasət və tədbirlərin hazırlanmasında vacibdir. Araşdırmada ortaya qoyulan qiymət və əmək intensivliyinin dinamikası, tədqiq olunan ölkələrdə kənd təsərrüfatı sektorunun inkişafına dair praktiki tövsiyələr verir. Tədqiqat nəticələri xüsusilə dövlət orqanlarına antiinhisar siyasətinin inkişaf etdirilməsi və tətbiq olunması üçün faydalıdır.

Eyni zamanda, bu iş, kənd təsərrüfatı müəssisələrinə maya dəyəri və qiymət siyasətlərini daha effektiv idarə etməkdə yardımçı olacaq. İnhisarçılıqla mübarizədə yeni yanaşmaların tətbiqi, bazarların daha şəffaf və rəqabətcil olması üçün mühüm addımlar atılmasına şərait yarada bilər.

**Nəticə.**

Aqrar sektorda inhisarçılığın artması, qiymətlərin yüksəlməsi və istehsalın qeyri-effektiv hala gəlməsinə səbəb olur. Tədqiqatda göstərilmişdir ki, əmək intensivliyi ilə qiymət dəyişiklikləri arasında yaxın əlaqə mövcuddur və əmək intensivliyinin azaldılması qiymətlərin aşağı düşməsinə səbəb ola bilər. İnhisarçılığın səviyyəsinin qiymətləndirilməsində ənənəvi yanaşmaların qeyri-dəqiq olduğu müəyyən olunmuşdur. Yeni təklif olunan yanaşma, əmək intensivliyi ilə qiymət dinamikası arasındakı əlaqəni daha doğru təhlil etməyə imkan verir. Dövlətin antiinhisar siyasətinin tətbiqi və tənzimləyici tədbirlərin gücləndirilməsi inhisarçılığın qarşısının alınmasında vacibdir. Bu siyasət həm də aqrar sektorda daha yüksək rəqabətə və istehsalın daha effektiv təşkilinə gətirib çıxara bilər. Pambıq istehsalı və emalı sahəsindəki təhlil, müəyyən inhisarçılıq halları olduğunu göstərmiş, lakin bazar qiymətlərinin sabit

olması nəticəsində məhsul qiymətindəki artımların iqtisadiyyata təsirinin çox olmadığını ortaya çıxarmışdır. Bu yanaşmalar yalnız Azərbaycanda deyil, həm də digər ölkələrdə aqrar sektorda inhisarçılığın azaldılması və rəqabət mühitinin gücləndirilməsi üçün tətbiq oluna bilər.

Tədqiqat aqrar sektorda inhisarçılığın azaldılması və rəqabət siyasətinin inkişaf etdirilməsi sahəsində mühüm nəticələr əldə etmişdir. Yeni yanaşmalar və metodlar, qiymət və əmək intensivliyinin dinamikası arasındakı əlaqəni təhlil etməyə və inhisarçılığın təsirini dəqiq qiymətləndirməyə imkan verir. Nəticədə, bu yanaşmalar dövlətin və kənd təsərrüfatı müəssisələrinin rəqabətə davamlılığını artıraraq, iqtisadiyyatda daha sağlam rəqabət mühiti yaratmağa kömək edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının "Rəqabət Məcəlləsi". 8 dekabr 2023-cü il.
2. Hüseyn R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları. Bakı - 2018, "Avropa" nəşriyyatı. 408 s.
3. Антипова Д.В., Кривова К.А. Антимонопольное регулирование в зарубежных странах, Самоуправление. 2020. № 4 (121).
4. Антимонопольная политика и развитие конкуренции в экономике региона: монография [Текст] / Э. Э. Шамилева, А. А. Ефремова, И. В. Артюхова [и др.]; Крымский федеральный университет им. В.И. Вернадского. – Симферополь : Полипринт, 2020. – 184 с.
5. Лернер А. Понятие монополии и измерение монопольной власти // В книге: Вехи экономической мысли. Теория отраслевых рынков. Т. 5. / Под общ. ред. А.Г. Слуцкого. — Санкт-Петербург: Экономическая школа, 2003. — С.536–566.
6. Чепурнова Н.М., Мурызева В.О. Свободная конкуренция в условиях цифровой экономики: механизмы защиты // Государственная служба. — 2020. — № 2. — С. 35–41.
7. Porter, M.E., Harvard Business Review Press. 2008
8. Harrison, J., & Cuthbertson, M. Market Structures and Monopoly Power: Theory and Practice in Agriculture. Journal of Agricultural Economics, 2017, 68(2), 123–137.
9. Krugman, P.R., & Obstfeld, M. International Economics: Theory and Policy. 2014, 9th Edition. Pearson.
10. Quliyev. Azərbaycan iqtisadiyyatının inhisarlaşma problemi və onun həlli yolları. Bakı: Elm və Təhsil. 2017
11. Əsədov, S. Aqrar sektorda rəqabət və bazar münasibətləri. Bakı: Nurlar Nəşriyyatı. 2015
12. Məmmədov, İ. İnhisarçılıq və onun qarşısının alınması tədbirləri. Bakı: Şərq-Qərb Nəşriyyatı. 2016
13. Əliyev, R. Aqrar iqtisadiyyatda inhisarlaşmanın təsiri və onun qarşısının alınması. Bakı: İqtisadiyyat və Hüquq Nəşriyyatı. 2019
14. Hüseynov, C. Rəqabət və inhisarçılığın iqtisadiyyata təsiri: Azərbaycan təcrübəsi. Bakı: Ekonomik Araşdırmalar Nəşriyyatı. 2021
15. Coşkun, T. Tarım Ekonomisi ve Rekabet: Türkiye'de İnkişaf Etmiş ve Gelişen Sektörler Üzerine Bir Araştırma. Ankara: Gazi Kitabevi. 2010
16. Kılıç, H. Rekabet Politikası ve İnhisarlar: Türkiye Ekonomisinde Durum Analizi. İstanbul: Beta Yayınları. 2018
17. Duran, A. Tarım Sektöründe Rekabet ve İnhisarlaşma: Türkiye ve Dünya Uygulamaları. İzmir: Ekin Yayınları. 2013

**Gunel Rahim OSMANOVA**
Azerbaijan State Agricultural University
Senior Lecturer, Department of Finance and Accounting
E-mail: gunsham@mail.ru

## FUNDAMENTAL ASPECTS OF NEW APPROACHES TO REDUCING MONOPOLIZATION IN THE AGRICULTURAL SECTOR

**Summary**

Monopoly in the agricultural sector, especially in the production and processing of various products, has been explored in this paper, along with its impacts on the economy. The paper emphasizes the necessity of new approaches to reduce monopolization by analyzing price dynamics and labor intensity. The relationship between increased labor productivity and reduced production costs, as well as the effect of monopolization on market prices, is discussed, highlighting the role of government anti-monopoly policies. The research also examines cases of monopolistic practices in cotton production and processing. Ultimately, the paper stresses the importance of improving anti-monopoly policies and implementing regulatory measures to ensure competition in the economy.

**Keywords:** monopolization, competition, agricultural economy, price, cost, antimonopoly

**Гюнель Рахим ОСМАНОВА**
Азербайджанский Государственный Аграрный Университет
Старший преподаватель, кафедры Финансов и бухгалтерского учета
E-mail: gunsham@mail.ru

## ОСНОВНЫЕ АСПЕКТЫ НОВЫХ ПОДХОДОВ К СНИЖЕНИЮ МОНОПОЛИЗАЦИИ В АГРАРНОЙ СФЕРЕ

**Резюме**

В данной статье рассматривается монополизация в аграрном секторе, особенно в производстве и переработке различных продуктов, и её влияние на экономику. Подчеркивается необходимость новых подходов к снижению монополизации путем анализа динамики цен и трудовой интенсивности. Обсуждается связь между ростом производительности труда и снижением себестоимости продукции, а также влияние монополизации на рыночные цены, акцентируя внимание на роли государственной анти-монопольной политики. В работе также рассматриваются случаи монополистической практики в производстве и переработке хлопка. В конечном итоге подчеркивается важность совершенствования анти-монопольной политики и внедрения регулирующих мер для обеспечения конкуренции в экономике.

**Ключевые слова:** монополизация, конкуренция, аграрная экономика, цена, себестоимость, антимонопольная политика